# İnsanlığın faciəsi





1992-ci il fevralın 25-dən 26-na keçən gecə dünya tarixində misli görünməmiş bir fəlakət baş verdi. Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinə edilən hücum nəticəsində 613 azərbaycanlı həyatını itirdi, 1275 insan əsir götürüldü və 150-dən çox insan itkin düşdü. Bu, böyük bir insanlıq faciəsi olmaqla yanaşı, eyni zamanda beynəlxalq hüquq normalarına zidd bir soyqırımı aktı idi.

Xocalı soyqırımı BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" 1948-ci il Konvensiyasının təyin etdiyi genosid anlayışına tam uyğun gəlir. Konvensiyaya əsasən, məqsədyönlü şəkildə etnik, milli və dini bir qrupa qarşı kütləvi qətliam dünya ictimaiyyəti tərəfindən böyük səs-küylə qarşılanmalıdır. Lakin dünya güclərinin geosiyasi maraqları, bəzi dövlətlərin ikili standartları Xocalı faciəsinə lazım olan siyasi-hüquqi qiymətin verilməsinə mane oldu. Buna baxmayaraq, bəzi ölkələrin parlamenti Xocalı soyqırımını rəsmi olaraq tanıdı.

Bu hadisənin unudulmaması və gələcək nəsillərə ötürülməsi üçün 2008-ci ildə "Xocalıya ədalət!" kampaniyası başladı. Məqsəd dünya ictimaiyyətinin diqqətini bu bədnam faciəyə çəkmək və erməni tərəfinin cinayətlərini ifşa etməkdir. Beynəlxalq miqyasda bu təbliğat kampaniyasının əhəmiyyəti danılmazdır.

Azərbaycan dövləti Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması üçün müxtəlif hüquqi addımlar atıb. Diplomatik səylər nəticəsində bir sıra ölkələr Xocalı faciəsini rəsmi olaraq soyqırımı kimi qəbul edib. Eyni zamanda Azərbaycan beynəlxalq məhkəmə orqanlarında bu məsələnin gündəmə gətirilməsi üçün çalışır. Bu istiqamətdə əsas məqsədlərdən biri Xocalı faciəsinə hüquqi qiymət verilməsi və bu cinayəti törədənlərin beynəlxalq ədalət qarşısında cavab verməsidir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif beynəlxalq platformalarda Xocalı soyqırımı ilə bağlı qərarların qəbul edilməsi, BMT, Avropa Parlamenti və digər qurumlarda məsələnin müzakirəyə çıxarılması üçün davamlı iş aparılır. "Xocalıya ədalət!" kampaniyası da bu məqsədlə həyata keçirilən qlobal bir təşəbbüsdür və dünya ictimaiyyətinin Xocalı həqiqətləri ilə bağlı məlumatlandırılmasına xidmət edir.

Xocalı soyqırımı təkcə döyüş meydanında deyil, həm də informasiya sahəsində bir müharibəyə çevrildi. Hadisənin baş verdiyi dövrdə Ermənistan tərəfi bu faciəni gizlətmək və fərqli təqdim etmək üçün güclü təbliğat apardı. Lakin beynəlxalq media orqanlarının, xüsusilə də Qərb jurnalistlərinin çəkdiyi fotolar və hazırladıqları reportajlar Xocalıda törədilən vəhşiliyin dünya ictimaiyyətinə çatdırılmasına imkan verdi.

Azərbaycan illərboyu Xocalı soyqırımının həqiqətlərini dünyaya çatdırmaq üçün müxtəlif platformalardan istifadə edib. Media və sosial şəbəkələr vasitəsilə yayılan görüntülər, sənədli filmlər və şahid ifadələri bu faciənin unudulmamasına xidmət edir. Eyni zamanda Ermənistan tərəfinin dezinformasiyasına qarşı mübarizə aparmaq üçün Azərbaycanın media qurumları və diaspor təşkilatları fəal şəkildə çalışırlar. Sosial mediada paylaşılan həqiqətlər, tarixi faktlara əsaslanan araşdırmalar, beynəlxalq ekspertlərin açıqlamaları informasiya müharibəsində Azərbaycanı haqlı tərəf kimi təqdim etməyə imkan verir.

Xocalı soyqırımı təkcə bir xalqın deyil, bütün insanlığın faciəsidir və bu həqiqətin yayılması üçün medianın rolu danılmazdır. İnformasiya müharibəsi davam edir və Azərbaycan öz haqq səsini dünyaya çatdırmaq üçün müasir kommunikasiya vasitələrindən istifadə edərək bu mübarizəni davam etdirməkdədir.

Prezident İlham Əliyev Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ardıcıl fəaliyyət göstərir. O, müxtəlif beynəlxalq tədbirlərdə bu faciənin hüquqi və tarixi aspektlərini dünya ictimaiyyətinin diqqətinə çatdırır. Prezidentin rəhbərliyi ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq məqsədilə hər il dövlət səviyyəsində tədbirlər keçirilir. Azərbaycanın diplomatik korpusu və diaspor təşkilatları da Xocalı həqiqətlərinin beynəlxalq arenada daha geniş şəkildə tanıdılması üçün fəal şəkildə çalışırlar. 2012-ci ildə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalı hadisələri soyqırımı kimi tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransında da üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində səylərin artırılmasına çağırılıb.

2024-cü il fevralın 26-da Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuş, şəhərin bərpası istiqamətində mühüm addımlar atmışdır. Bu addımlar həm faciənin unudulmaması, həm də Xocalının yenidən dirçəlməsi üçün tarixi əhəmiyyət daşıyır.

Xocalı soyqırımı sərhəd tanımayan bir fəlakətdir. Bu fəlakətin bədii izahı, onu yaşayan şahidlərin səslərində və çəkilmiş dəhşətli fotolarda açıq-aydın əks olunub. İnsanlığın səssiz qaldığı bir vaxtda Xocalı sakinləri böyük iztirablarla öz dözülməz talelərini yaşadılar. Biz bu faciənin təkcə rəqəmlərlə deyil, insan taleləri ilə yazıldığını daha dürüst anlaya bilirik. O gecə ailəsini itirən uşaqlar, əsir aparılan qocalar, soyqırımı qurbanı olan qadınlar hələ də bu hadisənin dəhşətini nəsillər boyu daşıyırlar. Ata-anasını itirən uşaqlar bir daha ailə istiliyini hiss edə bilmədilər. Qocalar doğma torpaqlarından zorla qoparıldı və ömürlərinin son illərini kədər içində keçirdilər. Bəzi ailələr tamamilə məhv edildi və onların nəsli kəsildi. Əsir götürülən insanlar illərlə doğmalarından xəbərsiz yaşamaq məcburiyyətində qaldılar. Hamilə qadınlar amansızcasına qətlə yetirildi, doğulmamış körpələr belə bu vəhşiliyin qurbanı oldu. Gecənin qaranlığı faciənin izlərini örtməyə çalışsa da, bu cinayətin acısı hələ də insanlarda yaşayır. O gecə üçün ədalət axtarışları hələ də davam edir. Xocalı sakinlərinin yaşadığı qorxu və ağrı yaddaşlardan silinməyəcək bir iz buraxdı.

Xocalı soyqırımı insanlıq tarixində silinməz qanlı ləkə olaraq qalacaq. Bu faciənin təşviqatı sərhəd tanımamalıdır. İnsanlar bu dəhşəti unutduqda tarixin təkrarolunma ehtimalı daha da artır. Hər il fevralın 26-da təşkil edilən anım tədbirləri, "Ana harayı" abidəsinin önündə toplaşan insan izdihamı bu faciənin nə qədər çox insanı narahat etdiyinin bariz nümunəsidir. Xocalı soyqırımı tək bir xalqın deyil, bütün insanlığın faciəsidir. Gələcək nəsillər bu tarixdən dərs çıxarmalı, bənzər faciələrin təkrar olunmaması üçün çalışmalıdırlar. Unutqanlıq dəhşətin təkrarlanmasına səbəb ola bilər!

*Pərvanə VƏLİYEVA,*
*Milli Məclisin deputatı*

Azərbaycan.- 2025.- 26 fevral (№ 43).- S.7.